

# Naxçıvanda yaradıcılıq müsabiqə-fesivalı keçirilib

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvanda ali təhsil müəssisələrinin tələbələri arasında bədii yaradıcılıq müsabiqə-festivalı keçirilib.**

Naxçıvan Dövlət Universitetində təşkiledilən sənət yarışmasının açılış mərasimində bu ali məktəbin rektoru, dosent Elburus İsayev müsabiqə-festivalın tələbələri vətənpərvərlik, milli adət-ənənələrimizə sədaqət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək məqsədi daşıdığını bildirib.

Sonra istedadlı tələbələr rəqs, musiqi, bədii qiraət üzrə öz bacarıqlarını nümayiş etdiriblər. Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin sədrliyi ilə Xalq artistləri Təranə Muradova, Samir Cəfərov və Gülyanaq Məmmədova, Əməkdar incəsənət xadimi Hafiz Quliyev, musiqi müəllimi Arslan Növrəsli və şair Baba Vəziroğludan ibarət münsiflər heyəti tələbələrin çıxışlarını izləyiblər.

Qaliblər Bakıda Heydər Əliyev Sarayında ulu öndərin anadan olmasının 100 illik yubileyi münasibətilə keçiriləcək konsertdə iştirak edəcəklər.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***